Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “___”“________” 2022-ci il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir

**Şəxslərin haqqı ödənilən ictimai işlərə cəlb olunması xidmətinin**

**Pasportu**

**Xidmətin adı:**

Şəxslərin haqqı ödənilən ictimai işlərə cəlb olunması

**Xidmətin məzmunu:**

Bu xidmət qanunvericilikdə nəzərdə tutulmuş hallarda işaxtaran və işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə onların mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrdə müqavilələr üzrə ödənişli ictimai işlərə cəlb olunmasını əhatə edir.

**Xidmətin aid olduğu təsnifat:**

Əmək və məşğulluq

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) tabeliyində Dövlət Məşğulluq Agentliyi (Agentlik)
Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)

**Xidmətin hüquqi əsası:**

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu
“İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu
Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”
“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı
Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Məşğulluq Agentliyinin Nizamnaməsi”

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli 84 nömrəli Qərarı ilə təsdiq edilmiş “Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları”

**Xidmətin həyata keçirilmə formaları:**

Xidmət yerinə şəxsən gəlməklə
Özünəxidmət (elektron sistemlər) vasitəsi ilə

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

Elektron qaydada
Çağrı mərkəzi vasitəsilə
SMS vasitəsilə
Yerində (şifahi və ya yazılı)

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

İşaxtaran və işsiz şəxslərin haqqı ödənilən ictimai işlərə cəlb edilməsi və ya haqqı ödənilən ictimai işlərə cəlb edilməsindən imtina edilməsi

**Xidmət istifadəçisi barədə məlumat:**

Fiziki şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

| | |
|---|---|
| Müddət | 20 dəqiqə |
| Xidmət haqqı | Ödənişsiz |

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

Elektron qaydada 7/24
Digər hallarda iş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

Agentliyin yerli qurumları
DOST Agentliyinin DOST mərkəzləri

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

Sənədlərin natamamlığı

Hüquqi əsasın olmaması

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması**:

Şəxsiyyət vəsiqəsinin surəti
Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin daimi yaşamaq üçün icazə vəsiqəsi - kağız daşıyıcıda (Əsli və ya notariat qaydada təsdiq edilmiş surəti)

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

Agentliyin yerli qurumuna və ya DOST mərkəzinə müraciət edən şəxs xidmət almaq üçün növbə götürür və növbəsinə uyğun olaraq qeydiyyat üzrə müvafiq masaya yaxınlaşır.
Məşğulluq imkanlarının qiymətləndirilməsi nəticəsində iş axtarışı və münasib məşğulluq tədbirlərinə cəlb edilməsi məqsədilə avtomatlaşdırılmış qaydada tərtib edilmiş fərdi məşğulluq proqramında qeyd edilmiş ardıcıllıq və müddətlər nəzərə alınmaqla, şəxsə haqqı ödənilən ictimai işlərə cəlb edilmə ilə bağlı ətraflı məlumat verilir.
Agentliyin və ya DOST mərkəzinin əməkdaşı haqqı ödənilən ictimai işlərin mövcud olduğu müəssisələr barədə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (MEİS) Vakansiya Bankı bölməsində yerləşdirilmiş məlumatı şəxsin şəxsi kabinetində yerləşdirir.
Şəxs ona təklif olunan ictimai işə razılığını bildirdikdən sonra Mərkəzin əməkdaşı tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş haqqı ödənilən ictimai işə göndəriş elektron qaydada işəgötürənə göndərilir və bu barədə məlumat işaxtaran və işsiz şəxsin şəxsi kabinetində yerləşdirilir.
Şəxslər onlayn müraciət etməklə, Vakansiya Bankında olan haqqı ödənilən ictimai işlər üzrə boş iş yerləri barədə məlumatları əldə edə və həmin vakansiyalara göndəriş formalaşdırmaqla müraciət edə bilərlər.

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan 30 gün müddətində yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər.

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

“e-sosial” portalı
NazirliyinMərkəzləşdirilmiş elektron informasiya sistemi

**Xidmətin elektronlaşma səviyyəsi:**

Qismən elektronlaşdırılmışdır

**Elektron xidmətin avtomatlaşdırma səviyyəsi:**

Qismən avtomatlaşdırılmışdır